8 avqust 2023-cü il, çərşənbə axşamı
Xalq qəzeti

# "İstiqlal"ın mübarəkdir, Rasim Balayev!

*Bu gün ekranımızın Nəsimisinin, Babəkinin 75 yaşı tamam olur*

**Azərbaycan xalqının görkəmli şair və filosofu, hürufi təriqətinin nəğməkarı, insan hisslərinin gözəlliyinin tərənnümçüsü kimi tanıdığımız İmadəddin Nəsiminin anadan olmasının 600 illiyinə həsr olunmuş "Nəsimi" filmi ekranlara çıxanda mən hələ kənddə yaşayırdım. Amma filmin bir çox epizodlarını artıq əzbər bilirdim. Hətta, filmdə istifadə olunmuş bəzi qəzəlləri kənd mədəniyyət evində məhz Rasim Balayev kimi oxumağa çalışırdım. İrad tuturdular ki, öz səsinlə, özün kimi oxu. Amma bacarmırdım. Çünki Rasim Balayev həmin qəzəllərin oxu tərzinə möhür vurmuşdu.**



...İş elə gətirdi ki, bir neçə ildən sonra ozamankı İncəsənət İnstitutunun mədəni-maarif fakültəsinə qəbul olundum və institut illərində gördüm ki, qrupumuzdakı tələbələrin əksəriyyəti Nəsiminin qəzəllərini məhz Rasim Balayev kimi oxumağa çalışır. Bu tendensiyanı "sürətləndirən" digər cəhət isə Rasim Balayevin bacısı Təranə Balayevanın da bizimlə eyni qrupda oxuması idi.

Sonralar mən "Dalğa" qəzetində işləyərkən, dövlət radiosunda çalışdığım dövrdə Rasim Balayevlə çox görüşdüm, dəfələrlə həmsöhbət olduq, ekran, efir, səhnə sənəti haqqında fikirlərini qələmə aldım. Şahidi oldum ki, onun şəxsiyyəti, insanlığı da elə sənətkarlığı kimi ucalarda dayanmağa layiqdir. Bu sənətkarla yaradıcılıqdan, yazı-pozudan kənar olan söhbətlərdə isə onun sadəliyinə, səmimiyyətinə şahidlik etdim.

Xatırladım ki, Rasim Balayev 1948-ci il avqustun 8-də Ağsuda dünyaya gəlmişdir. Daha doğrusu, Azərbaycan kinosu üçün doğulmuşdur. Onu həmkarları, aktyor və rejissorlar çox sevdilər, tamaşaçılar heyranlıqla, ürəkdən qəbul etdilər, dövlət isə xidmətlərini yüksək qiymətləndirdi. Onun Xalq artisti, Dövlət Mükafatı laureatı adlarına, Prezidentin fərdi təqaüdünə layiq görülməsi yaradıcılığına verilən qiymətdirsə, uzun illər Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi olması, ötən ildən isə sədr vəzifəsinə layiq görülməsi bu sahədəki təşkilatşılığına görə göstərilən etimaddır.

Bu yaxınlarda isə daha bir xoş xəbər aldıq. Nəsiminin anadan olmasının 650 və onun haqqında filmin müəllifi – görkəmli kinorejissor və ssenarist Həsən Seyidbəylinin 100 illiyi münasibətilə Ankarada keçirilən təntənəli tədbir çərçivəsində TÜRKSOY-un Baş katibi Düsen Kaseinov Nəsimi obrazının yaradıcısı Rasim Balayevi TÜRKSOY-un təsis etdiyi "Nəsimi" medalı ilə təltif edib.

Yubilyara ən böyük hədiyyə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən gəldi. Dövlət başçısının dünən imzaladığı sərəncamda deyilir: "Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Rasim Əhməd oğlu Balayev "İstiqlal" ordeni ilə təltif edilsin".

"İstiqlal"ın mübarək, Nəsimi izzətli, Babək qətiyyətli böyük sənətkar!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***